Çempionatda ümumilikdə ölkəmizin 46 şəhər və rayonundan 110 oğlan və 44 qız şahmatçı iştirak edib. 9 turdan ibarət olan və İsveçrə sistemi üzrə keçirilən yarışda iştirakçılar üç yaş qrupunda mübarizə aparıblar.Hər yaş qrupunda oğlanlar və qızlar arasından ayrı-ayrılıqda 4 qalib müəyyənləşdirilib.Həmçinin, bütün yaş qrupları üzrə fərdi qarşılaşmaların ümumi nəticələrinə görə iştirakçı şəhər və rayonların komandaları müvafiq yerlərə layiq görülüb.Onlardan paytaxtı təmsil edən Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat məktəbinin,Gəncə şəhərinin,Neftçala rayonunun və Bakı şəhərinin I komandaları daha yüksək nəticələrə nail olublar.

Qaliblər Təhsil Nazirliyi tərəfindən müvafiq diplom və qiymətli hədiyyələrlə təltif edilib.